# Şagirdlərdə motivasiya sahəsinin formalaşması xüsusiyyətləri

**Sveta Nuriyeva**
*ADPU-nin müəllimi*
**E-mail:** sveta.nuriyeva@mail.ru

**Rəyçilər:** ped.ü.f.d. Ə.B. Qədimova,
psixol.ü.f.d., dos. Q.V. Rəhimova

**Açar sözlər:** məktəb, təlim, şagird, təlim motivasiyası, maraq
**Ключевые слова:** школа, обучение, ученик, учебная мотивация, интерес
**Key words:** school, instruction, apprentice, learning motivation, interest

Məktəbdə təlimin səmərə və keyfiyyətləri hər bir müəllimin qarşısında duran əsas vəzifələrdən biridir. Psixoloqlar belə qənaətə gəlmişlər ki, təlim uğurları təkcə şagirdin təlimə, öyrənməyə qabilliyi, bütövlükdə qabiliyyətləri və s. deyil, həm də təlim motivasiyası ilə şərtlənir. Başqa sözlə, onun yaxşı oxuması üçün bütün digər şərtlərlə yanaşı həm də təlim motivasiyasının formalaşması zəruridir. (Ə.Ə. Əlizadə)

Dünya psixologiyasında bu sahədə tədqiqatlar aparmış Z.Freyd, K.Levin, Q.Olport, A.Maslou, J.Nütten, X.Xekxauzen və b. tədqiqatları xüsusi əhəmiyyət kəsb edir. Motivasiya sahəsinin beştərkibli strukturunun (tələbatlar - təlimin mənası - motivlər - məqsəd - emosiya və hisslər) təlim prosesində bu təhriklərdən hər birinin özünəməxsus funksiyası və təzahür xüsusiyyətləri olsa da, tədris fəaliyyətinin səmərəli olması onların qarşılıqlı əlaqəsindən asılıdır.

Tələbatlar aktivləşdirmə funksiyası yerinə yetirir. Şagirdlərin fəaliyyət və ünsiyyət sahəsi genişləndikcə onlar dəyişirlər. Tələbatların bu mühüm xüsusiyyəti öz əksini onda tapır ki, təmin olunmuş hər hansı bir tələbatın zəminində yeni, daha yüksək tələbatlar formalaşır və inkişaf edir. Təlimə tələbat da bu prosesdə əmələ gəlir və özünəməxsus psixi halət kimi şagirdlərin tədris fəaliyyəti üçün şərait yaradır. İdrak tələbatı təlim prosesində inkişaf edərək təlim (və yaradıcılıq) tələbatına çevrilir. Şagirdin tədris fəaliyyətində aktivliyinin istiqaməti isə təlim motivləri ilə müəyyən olunur. J.Nuttenin sözləri ilə desək, təlim motivlərində şagirdin "həyati dəyərlərinin sistemi" ifadə olunur.

Müasir təhsil konsepsiyasında ənənəvi təlimdən fərqli olaraq məsələlər yeni pedaqoji təfəkkür kontekstində açıqlanır. Bu mənada sistemli psixopedaqoji tədqiqatlar əsasında təlim motivlərinin, onların axarında maraqların aktuallaşması və metodik ölçülərlə müəyyənləşdirilməsi önəmli əhəmiyyət kəsb edir. Digər tərəfdən təhsilin humanistləşdirilməsinin başlıca paradiqmalarından biri kimi şagirdin yaxşı oxumaq istəməsi və bunun üçün şəraitin yaradılması da aktuallığı ilə diqqəti cəlb edir.

Psixoloji kontekstdə müxtəlif amillərlə xarakterizə olunan bu problemin mərkəzində tələbat-motivasiya durur. Məktəb məkanında tələbat-motivasiya sahəsinin affektiv mərkəzində şagirdin maraq və meylləri durur. Dərsdə maraq necə əmələ gəlir? Şagird dərslə niyə maraqlanmır? Dərsdə suallar verilirmi? və s. bu kimi problemlər və onların həlli təlim işinin əsasını təşkil edən amillərdəndir.

Məktəbə böyük həvəslə gələn uşaqların bir qismində elə hallar olur ki, getdikcə təlimə maraq sönür, fəallıq azalır. N.Q Çernişevski qeyd edirdi ki, əgər təbiətən fəal olan uşaq

oxumağı sevmirsə, bunun səbəbi onun özü deyil, pis tədris tərzləri və ya tərbiyə olunan üçün onun yaramaz məzmunu ilə uşaqda biliyə marağı söndürən tərbiyəçidir. Şagird müəllimi sevirsə, dərsdə diqqətlə ona qulaq asır, dərslə maraqlanır. Onun üçün sevimli müəllim həm də maraqlı dərs deməkdir. Sayğısız müəllimin dərsi isə şagirdi cəlb etmir, ona cansıxıcı, darıxdırıcı, maraqsız görünür.

Son zamanlar aparılan tədqiqatlar (A.K.Markova və b.) əsaslı surətdə göstərir ki, marağı şəxsiyyətin motivasiya yönümü ilə eyniləşdirmək olmaz. Onlar müəyyən xüsusiyyətlərlə bir-birindən fərqlənirlər. Şəxsiyyətin motivasiya yönümü marağın əsasını, mənbəyini təşkil edir. Maraq isə mürəkkəb motivasiya yönümünün nəticəsi, onun inteqral təzahürlərindən biri kimi özünü göstərir (4, 91). Məktəb təcrübəsində bu faktları empirik surətdə "kəşf" etmiş müəllimlər az deyil. Belə müəllimlərdən biri, məktəbdə biologiya fənnini tədris edən Zərifə müəllimə sinifdə "çətin" uşaq sayılan VII sinif şagirdi Mahirin maraq dairəsini öyrənməklə onda təlimə qarşı motivasiyanı gücləndirə bilmişdir. D.Karnegi belə fikir söyləmişdi ki, insana təsir göstərmək üçün onun istəyi haqqında danışasan və həmin istəyə nail olmağın yolunu öyrədəsən. Zərifə müəllimə də Mahirin bu istəyindən bacarıqla istifadə etmişdi. O, Mahirin evdə çoxlu quş saxladığını öyrənmişdi. Bir gün Zərifə müəllimə yolda Mahirlə rastlaşarkən onun quşlarla bağlı müəyyən qaydaların bilib-bilməməsini öyrənmək istəmişdi. Müəllimənin xoş ovqatı Mahiri daha da ürəkləndirmiş və ona səmimi etiraf etmişdir ki, çoxlu sayda qüsurları olsa da onlarla münasibətdə müəyyən qaydaları bilmir, ancaq öyrənmək istəyir. Mahir müəllimənin məsləhətlərinə, onun üçün gətirdiyi kitablara maraq göstərməklə quşçuluq elminin əsaslarını öyrənməyə həvəs göstərmiş və tezliklə onun biologiya fənninə münasibəti də dəyişmişdi. O, dərsə nəinki hazır gəlir, həm də müəllimə sual verir, müxtəlif bioloji məsələləri daha ətraflı öyrənmək istəyirdi. Artıq o biologiya fənnindən "4" və "5" qiymətlər alırdı. Məktəbdə Mahirin iştirakı ilə əvvəlcə biologiya dərnəyi, bir qədər sonra isə canlı guşə təşkil etdilər. Zərifə müəllimənin səyi nəticəsində Mahir tanınmaz olmuşdur. Kim bilir bəlkə də Mahir gələcəkdə bu sahədə yaxşı bir mütəxəssis, alim kimi yetişəcək. Tədqiqatlar göstərir ki, təlim şagird üçün şəxsi məna kəsb etdikdə, təlim maraqlarının inkişafında keyfiyyətcə yeni mərhələ başlayır.

A.N.Leontyevin fikrincə, şəxsi məna subyektin xalis həyati münasibətlərini bilavasitə əks etdirir və özündə yaşadır. Şəxsi mənanın əmələ gəlməsi motivasiyanın iki əsas funksiyasına (təhrik etmə və istiqamətləndirmə) yalnız insana məxsus olan yeni bir funksiya - mənavermə, mənalandırma funksiyası əlavə olunur. Şagirdlərdə öz fəaliyyətlərinin motivlərini dərk etməsi, tədris situasiyanda öz məqsədini dəqiq müəyyən edib həyata keçirilməsi motivlərin özlərinin fəallığı bu baxımdan xüsusi əhəmiyyətə malikdir. Professor Ə.Ə. Əlizadə haqlı olaraq qeyd edir ki, "Maraq səriştəli müəllim üçün sözün əsl mənasında Arximed lingidir. O, bu möcüzəli lingin köməyilə uşaq dünyasını məhvərindən oynada bilər və oynamalıdır! "Təəssüflə qeyd etmək lazımdır ki, müəllimlərin bir qismi maraq effektinin psixoloji mexanizmlərini aça bilmir və tədris situasiyalarında çıxış yolu tapmırlar. Ona görə də məktəbdə bir sıra qabiliyyətli şagirdlərə təsadüf olunur ki, motivasiya çatışmazlığından oxuya bilmirlər. Göründüyü kimi, şagirdlərdə tədris fəaliyyəti motivlərinin formalaşması marağın əmələ gəlməsinin əsas amillərindəndir. Bu sahədə xarici ölkə psixoloqları Q.V.Olport, A.N.Leontyev, K.Rocers, A.K.Markova və b. tədqiqatlar aparmışlar. Eyni zamanda müasir şəraitdə yeni pedaqoji təfəkkür kontekstində bu məsələlərlə bağlı Azərbaycan psixoloqu Ə.Əlizadənin də dəyərli tədqiqatları vardır.

Prof. Ə.Əlizadə A.K.Markovanın tədqiqatlarını təhlil edərək qeyd edir ki, şagirdlərdə tədris fəaliyyətinin gedişində tədrisi-idrak motivləri formalaşır. Odur ki, tədris fəaliyyətinin

həyata keçirilməsi ilə bağlı proqramlarda əsas aşağıdakı komponentlərə üstünlük verilməlidir.

1. Motivasiya mərhələsi.
2. Əməliyyat-idrak mərhələsi.
3. Refleksiv qiymətləndirmə.

Maraqlar motivasiyasının mərhələsindən bəhrələnir, əmələ gəlir, əməliyyat-idrak və refleksiv qiymətləndirmə mərhələlərində formalaşır. Tədqiqatlardan aydın olur ki, maraqlarla bağlı motivasiya sahəsində üç əsas mərhələ alınmalıdır.

1. Problem situasiyanın yaradılması. Bu zaman şagirdlərə elə tapşırıqlar verilir ki, ancaq müvafiq mövzunu öyrənməklə onu həll etmək olar; müəllim təklif olunan mövzunun nəzəri və praktik əhəmiyyətini məna kateqoriyası axarında araşdırır; müəllim problemin elm tarixində necə həll olunduğunu şərh edir.

2. Problem situasiya müzakirə olunur və əsas tədris tapşırığı formula edilir. Bu şagirdlərin fəaliyyətinin məqsədini təşkil edir.

3. Şagirdlərin mövzunun öyrənilməsi sahəsində özlərinə nəzarəti və özlərini qiymətləndirilməsi. Tapşırıq bilindikdən sonra işin planı müəyyən edilir və müzakirə olunur, mövzunu öyrənmək üçün nəyi bilməyin və bacarmağın lazım olması aydınlaşdırılır. Beləliklə də şagirdlərdə özünəməxsus yönüm yaranır və maraq öz-özündən inkişaf etməyə başlayır K.Rocersin fikri ilə desək, şəxsiyyətyönlü təlim şagirddə idrak fəallığını inkişaf etdirir, dərslə maraqlanır, daha çox sualla müəllimə müraciət edir və bilik əldə etməyə maraqlar çoxalır.

A.N.Leontyevə görə, "maraqlı tədris fənni" şagirdin bu və ya digər motivilə əlaqədar olaraq onun "məqsəd sahəsinə" çevrilmiş tədris fənnidir.

Tədris fəaliyyətində şagirdin fəallığının konkret istiqaməti onun məqsədilə müəyyən olunur. Bu baxımdan məqsəd motivlərlə bilavasitə bağlıdır. Təlim motivilə məqsəd tədris fəaliyyətinin vektorunu təşkil edirlər. Şagirdlərə öz qarşılarına məqsəd qoymaq və onu həyata keçirmək yollarını öyrətmək lazımdır. Müəyyən edilmişdir ki, əgər şagird öz qarşısına müəyyən məqsədlər qoyub, onlara tədris fəaliyyətində nail ola bilmirsə, onun tələbat və motivləri nə qədər yetkin olursa-olsun, həyata keçirilə bilmir.

Motivlərin tədris fəaliyyətində həyata keçirilməsi imkanları bilavasitə emosiya və hisslərlə şərtlənir. Şagirdin, bir tərəfdən, özündən təlim uğurları və uğursuzluqlarından razı olub-olmaması, digər tərəfdən, müəllimlərlə və sinif yoldaşları ilə qarşılıqlı münasibətlərinin xarakteri öz əksini onun hisslər aləmində tapır. Şagird müxtəlif çətinliklərlə rastlaşırkən, tədris fəaliyyətinin tənzim olunmasında emosiya və hissələrin rolu daha da artır. Onun iradı səy göstərməsi üçün psixoloji cəhətdən əlverişli şərait yaradır.

Tədris prosesində şagirdlərdə təlim motivasiyasının, ilk növbədə daxili motivasiyanın formalaşdırılması psixoloji baxımdan xüsusi əhəmiyyətə malikdir. Onu uğurla həll etmək üçün psixoloqların, pedaqoqların və metodistlərin yaxından iştirakı ilə kompleks tədqiqatlar aparılmalıdır.

**Məqalənin aktuallığı.** Şagirdlərin tədris fəaliyyətinin tənzim olunmasında təlim motivasiyanın formalaşdırılmasının psixoloji xüsusiyyətlərinin nəzərə alınması məqalənin aktuallığını bir daha sübut edir.

**Məqalənin elmi yeniliyi.** Tədris fəaliyyətinin səmərəliliyinin artırılmasında motivasiyanın əhəmiyyəti açıqlanmış və onun strukturuna daxil olan təhriklərin funksiyası və təzahür xüsusiyyətlərinin psixoloji xüsusiyyətləri sistemli şəkildə araşdırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Psixologiya fakültələrində, praktik psixoloqun işində istifadə edilə bilər.

## Ədəbiyyat

1. S.İ. Seyidov, M.Ə. Həmzəyev. Psixologiya. Bakı, 2007.
2. Ə.Ə. Əlizadə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, 1998.
3. Ильин Е.П. Мотивация и мотивы. Санкт-Петербург, 2000.
4. Маркова А.К. Орлов Б.А. Формирование мотивации учения. М., 1993.

**С. Нуриева**

## Формирование у школьников сферы мотивации

## Резюме

В данной статье рассматриваются особенности мотивационной сферы учащихся. Раскрывается суть понятий "учебная мотивация" в трудах психологов. Низкая мотивация учения - одна из самых распространенных причин неуспеваемости школьников. Успешность учебной деятельности определяется мотивацией, которой оказывает самое большое влияние на продуктивность учебного процесса. Показана взаимосвязь учебной деятельности и необходимости формирования учебной мотивации школьников, роль учителя в процессе формирования учебных мотивов.

**S.Nuriyeva**

## Formation of motivation in schoolchildren

## Summary

This article discusses the features of the motivational sphere of students. The essence of the concepts of "learning motivation" is revealed in the writings of psychologists. Low learning motivation is one of the most common causes of school failure. The success of learning activities is determined by the motivation that has the greatest impact on the productivity of the learning process. The interrelation of educational activity and the need to form educational motivation of schoolchildren, the role of a teacher in the process of forming educational motifs is shown.

**Redaksiyaya daxil olub:** 21.01.2019